Fərman Məhəmməd Əzizli

***

## Şəfalı əllər

*İsmayıllı rayon Mərkəzi Xəstəxanın tanınmış cərrah həkimi Elman Xəlilova ithaf edirəm.*

*Adın təmənnasız bir cərrah kimi*
*Çox yerdə, çox zaman çəkilir indi.*
*Səni insanlara belə sevdirən,*
*Cərrah peşəsinə məhəbbətindir.*

*Heç kəs ustadına kəm baxmayıbdır.*
*Hamı həsəd çəkib dağın qarına,*
*Belə sadəliyin, ucalığınla.*
*Ucalıq gətirdin ustadlarına!*

*Cərrah peşəsinin işiğında sən,*
*Yandır bilmisən söz işığını,*
*Halal zəhmətinlə, alın tərinlə,*
*Özün yandırmısan, öz işığını!*

*İnam qələbədir, inam ölübsə,*
*İnsan arzuları yaşamır demək.*

*İnamsız gedirsə əməliyyata,*
*Elman öz adını daşımır demək.*

Fərman Məhəmməd Əzizli.
Azərbaycan Respublikasının Maarif xadimi, Əməkdar müəllim, rayon Ağsaqqallar Şurasının idarə heyətinin üzvü, Qəbələ Yazarlar İB-nin üzvü.



## Qoymadılar ümidsizliyə qapılım

*Qəbələdə tanınmış ziyalı, ağsaqqal, dövlət qulluqçusu Qərib Qəribovun dilindən.*

*Sən də çalışırsan, qoymursan həkim*
*İnsanlar qapansın ümidsizliyə,*
*Ünvanına gələn xəstə qəlbində,*
*Yanmaq istəyirsən nur olum deyə.*

*Allah pay verənin payını kəsməz,*
*Sən də pay verirsən insan ömrünə,*
*Deyirlər nə qədər alqışlar düşüb,*
*Həkim taleyinə, cərrah ömrünə.*

*Sənədlə, kağızla alim olmadın,*
*Böyük insanlığın alimi oldun.*
*Nə qədər insanın ömür evində,*
*İşıq tək, alışdın, nur kimi doldun.*

*Hərənin bir cürə alın yazısı,*
*Hərənin bir cürə ömür yolu var.*
*Qışın ortasında bəzən yaz gəlir,*
*Bəzən də yay günü səpələnir qar.*

*Təbiət insanı dəyişə bilər,*
*İnsan təbiəti dəyişə bilməz.*
*Hələ indidən belə yüz min ildə*
*Gecələr gündüzlər görüşə bilməz.*

*Pərvanəyə çevrilib*
*Mənim başımın üstdə*
*Ömründən qurban verib*
*Fərhad o vaxt mənim üçün.*

*Sonsuz arzularımı,*
*Çiçək edib bir dəstə*
*Xəyalən göndəririm*
*Fərhad cərraha hər gün.*